# “QARA QIZIL” ÖLKƏYƏ MİLYONLAR GƏTİRİR

**Ötən əsrin 90-cı illərində bir sıra aparıcı neft şirkətləri ilə danışıqlar başlandı. 1994-cü il sentyabrın 20-də Azərbaycan respublikası xarici neft şirkətləri ilə «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərin hissəsinin birgə işlənməsi üzrə ilk beynəlxalq neft sazişi imzalandı. Bu saziş «Əsrin müqaviləsi» adlanır. Müqaviləni aşağıdakı xarici şirkətlər imzalayıblar. Böyük Britaniyanın Bp, ABŞ-ın AMOCO, Rusiyanın Lukoyl, ABŞ-ın Pennzoyl, ABŞ-ın Unocal, Norveçin Statoyl, ABŞ-ın MC Dermott, Böyük Britaniyanın Ramco, Türkiyənin TPAO və Səudiyyə Ərəbistanının Dalta-fless. Sazişdə Azərbaycan hökumətinin Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) təmsil edir. Bu sazişdən sonra neftin ixracından mənfəət əldə edildi. Bu pulları necə xərcləmək üçün bir mənbə kimi Neft Fondu yaradılmalıydı. Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNŞ) yaradıldı. Onu yaxşı idarə etmək üçün işlər görüldü. Gəlin görək bu idarəetmə necə yerinə yetirilir. 2007-ci il iyunun 26-29 BMT Vyanadakı «Hökumətə inamın bərpası» mövzusunda 7-ci Qlobal Form keçirildi. Forumda BMT Dövlət Qulluğu mükafatının təqdimetmə mərasimi oldu. Mükafat alanlar arasında Azərbaycan respublikasının Dövlət Neft Fondu da var. «Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması üzrə» mükafatı Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümova BMT baş katibinin müavini Asa-Roze Migiro təqdim etdi. Dövlət Neft Fondu Şərqi Avropa və MDB ölkələrinin dövlət təşkilatları arasında «BMT-nin Dövlət Qulluğu mükafatı»na layiq görülən birinci dövlət qurumudur. Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümovun rəhbərlik etdiyi qurumun belə yüksək səviyyəli mükafat alması bütövlükdə Azərbaycanda şəffaf idarəçilik prosesinin uğuru hesab edilə bilər. Bu, yalnız Neft Fondunun deyil, bütövlükdə Azərbaycan dövlətçiliyinin dövlət qulluğunun hansı zirvələrə qalxması göstəricisidir. BMT-nin baş katibinin müavini xanım Assa Roze Nigiro bu mükafatı Azərbaycan üçün mühüm hadisə hesab edir. Dövlət Neft Fondunun fəaliyyət göstərdiyi 7 il ərzində neft gəlirlərinin şəffaf idarə olunmasında mühüm rol oynayır. Avstriyanın xarici məsələlər üzrə dövlət katibi Hans Yunklerin sözlərinə görə, bu mükafat Azərbaycanın nə qədər irəliləyişə nail olmasının göstəricisidir.**

Transparency İnternational təşkilatının sədri Huget Labellin şəffaflıq təşəbbüsünün tətbiqində lider olan Azərbaycandan çox neft-qaz gəlirlərinə dair hesabat verilmədiyini bildirmişdi. Kanadanın BMT-dəki daimi nümayəndəliyinin rəhbəri BMT-nin Dövlət İdarəçiliyi üzrə ekspertlər komissiyasının sədri səfir Jozellin Burdon hesab edir ki, bu mükafata layiq görülən Azərbaycanın təcrübəsi ilə qonşu ölkələrə nümunə ola bilər.

Onu da qeyd edim ki, BMT-nin təsis etdiyi bu mükafata dünyanın bütün ölkələri qoşulmuşdu. 2007-ci il üçün bu mükafata daha 14 ölkə də layiq görülmüşdür. Bu yaxınlarda Azərbaycan Respublikası Dövlət Neft Fondu «Linalurq-Meduel» şəffaflıq indeksi üzrə cədvəldə yüksək yer tutur. Yuxarıda adını çəkdiyimiz monitorinq cədvəli suveren fondlar institutunun təsisçiləri Karel Lunalurq və Maykl Mediel tərəfindən hazırlanmışdır.

Azərbaycan Respublikası Dövlət Neft Fondu 10 balla 45 suveren fond arasında 8 ölkənin suveren fondları ilə birgə birinci yerdədir. Reytinqdə ilk yeri Azərbaycan Respublikası Neft Fondu ilə yanaşı, Çili, Birləşmiş Ərəb Əmirliyinin «Mibidala», Sinqapurun «Temasek», İrlandiyanın «NPRF», ABŞ-ın «Alyaska», Norveçin «GPF» və Yeni Zellandiyanın suveren fondları tutub. Bəs görək fond menecnet işini necə təkmilləşdirir, öhdəliklər necə yerinə yetirilir.

2004-cü il mayın 19-da ABŞ-ın ticarət və inkişaf agentliyi VSTDA ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu arasında Neft Fondunun İnstitusional Quruculuğunun təkmilləşdirilməsi birinci mərhələsini həyata keçirmək məqsədilə 1 milyard 91 milyon 840 min ABŞ dolları məbləğində texniki yardım barədə qrant sazişi imzalamışdı. Qrant sazişini Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru S.Şərifov və ABŞ-ın Azərbaycandakı səfiri R.Harniş imzalamışlar. Sazişə əsasən, texniki yardım fondun valyuta vəsaitlərinin yerləşdirilməsi, işinin təkmilləşdirilməsi, xarici menecerlərin seçilməsi, onların iş göstəricilərinin monitorinqlərinin dəyərləndirilməsini nəzərdə tuturdu. Fondun əməkdaşlarının peşəkarlığı, səviyyəsinin artırılması istiqamətini əhatə etmişdir.

2007-ci il fevralın 7-də yuxarıda adı çəkilən layihənin ikinci mərhələsinin həyata keçirilməsi məqsədilə 855 075 000 ABŞ dolları məbləğində texniki yardım imzalamışdı. Qrant sazişini ARDNF-nun icraçı direktoru Ş.Mövsümov və ABŞ-ın Ticarət və İnkişaf Agentliyinin Avropa ölkələri üzrə Direktoru D.Stayn imzalayıb. ABŞ-ın «Oberture Finansual Serburec LLC» şirkəti tərəfindən həyata keçirilmiş bu layihənin 2-ci mərhələsində inventisiya portfelinin idarə olunması sisteminin gəlirliyinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilmiş mühasibatlıq sisteminin seçilməsi və qurulması üçün neft fonduna məsləhətçi xidmətlərinin göstərilməsini, fondun valyuta vəsaitlərinin idarəedilməsi üzrə fonddaxili prosedurlar barədə təlimatın yenilənmiş variantının hazırlanması nəzərdə tutulurdu.

2009-cu il sentyabrın 28-də yenə də həmin layihənin üçüncü mərhələsi üzrə texniki yardım üçün mal və xidmət xərclərinin qismən maliyyələşdirilməsinə dair 250 milyon ABŞ dolları məbləğində qrant sazişi imzalanıb. Qrant sazişinin ARDNF-nun



icraçı direktoru Ş.Mövsümov və ABŞ-ın ticarət və inkişaf agentliyinin Avropa və Asiya ölkələri üzrə direktoru S.Qrinit imzalayıb. Üçüncü mərhələdə NF-da risqlərin idarə edilməsi sisteminin və fondun mütəxəssislərinə treninq idarəetmə sisteminin qurulması üzrə məsləhətçi xidmətinin göstərilməsi nəzərdə tutulur. Yaxşı, bəs görək bu idarəetmə xalqımıza nə verdi? Dünya qlobal maliyyə böhranı şəraitində olsa da, fondların idarəolunması xeyli mürəkkəbləşməsinə baxmayaraq, AR Dövlət Neft Fondu heç bir maliyyə itgisinə yol verilmədi. Çünki depozit yerləşdirən banklar AR DNF-nun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında qaydalara uyğun olaraq yüksək reytinq (AA) və nüfuzlu banklar arasında seçilir. Qiymətli kağızlar üçün kastogial (depozitar) bank isə Bank of Nev York Mellondur. ARDNF-nun xarici valyuta aktivləririn həcmi 2009-cu ilin 01 oktyabr tarixinə 13 337 500 milyon ABŞ dollarına bərabər olmuşdur ki, bu aktivlərin də əksəriyyəti qiymətli kağızlarda yerləşdirilmişdir. ARDNF-nun xarici valyuta vəsaitlərinin aktivləri üzrə bölgüsü 01 oktyabr 2009-cu il tarixinə aşağıdakı kimidir: suveren borc kağızları 32,8 faiz, agentliklər və beynəlxalq təşkilatların istiqrazları 40,18 faiz, maliyyə isteqrazları 20,8 faiz, korporativ istiqrazlar 2,65 faiz, qısamüddətli kommersiya kağızları 0,54 faiz, səhmlər 0,4 faiz, depozitlər və pul bazarı alətləri 3,86 faiz, bank hesabları 0,42 faiz olmuşdur.

**2008-ci ildə Dövlət Neft Fondunun mühüm gəlir mənbəyinin fondun vəsaitlərinin idarə edilməsindən əldə edilən 231 171,3 min manat olmuşdur. 2008-ci ildə Dövlət Fondunun 211 819,5 min manat məbləğində vəsaiti Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəməri çəkilməsinə yönəldilmişdir. Elə həmin il Dövlət Fondundan qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət şəraitini yaxşılaşdırmaq, məskunlaşma həlli ilə bağlı məsələlərin maliyyələşdirilməsinə ümumi 144 999,4 min manat vəsait ayrılmışdır. Fondun vəsaiti hesabına Azərbaycanın müxtəlif ərazilərində qaçqın və məcburi köçkünlər üçün 32 qəsəbə, o cümlədən 15635 yaşayış evi istifadəyə verilmişdi. Həmin ildə Dövlət Neft Fondunun 120 600,0 min manat məbləğində vəsaitin Samur-Abşeron suvarma sisteminin yenidən qorunması layihəsinə ayrılmışdır. 2007-ci il 16 aprel tarixli sərəncamının icrasına uyğun olaraq hesabat ilində Neft Fondunun 2 295,6 min manat (2007-2015) Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsinə yönəldilmişdir. Hesabat ilində Dövlət Fondunun büdcədənkənar xərcləri və ödənişləri 678 623,8 min manat təşkil etmişdir. 2008-ci il ərzində Dövlət Neft Fondunun gəlirləri 11 864 648,1 min manat təşkil etmişdir. Hazırda isə Dövlət Neft Fondunun gəliri isə 13 milyard manata çatmışdır. Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycan Neft Fondu son on ildə düzgün, şəffaf idarə olunmuş, ictimaiyyətə vaxtlı-vaxtında hesabat verilmişdir. Eyni zamanda valyuta vəsaiti səmərəli yerləşdirildiyinə görə ölkəyə 100 milyonlarla neft gəlirləri əlavə qazanc gətirmişdir.**

**Səriyyə Müslümqızı**

*Məqalə Dövlət Neft Fondunun 10 illik yubileyi ilə bağlı ən yaxşı analitik yazı müsabiqəsinə təqdim edilir.*